Məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul üzrə müsabiqənin elektron sənəd qəbulu mərhələsinə start verilir.

Müsabiqənin elektron sənəd qəbulu mərhələsi 27 noyabr - 4 dekabr tarixlərini əhatə edəcək. Müsabiqədə iştirak etmək istəyən namizədlər 27 noyabr saat 11:00-dan 4 dekabr saat 11:00-dək https://miq.edu.az/directors/ linkinə daxil olaraq qeydiyyatdan keçə bilərlər.

Müsabiqədə məktəbəqədər təhsil və ya pedaqoji sahə üzrə ali təhsili, məktəbəqədər təhsil müəssisəsində 3 ildən az olmayaraq pedaqoji stajı olan şəxslər iştirak edə bilərlər.